Xalq qəzeti.- 2021.- 15 iyul.

# Şəhid həmkarlarımızın vəfatından 40 gün ötdü




***Azərbaycan 44 günlük Vətən müharibəsində, təxminən, 30 ildən bəri Ermənistanın işğalı altında olan torpaqlarını azad etdi. Böyük Qələbə ilə başa çatmış müharibə Azərbaycan xalqına qürur gətirdi. İgid və vətənpərvər oğullarımız, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadəsi ilə desək, düşmənin belini qırdı, işğalçı ordunu tarixi torpaqlarımızdan qovdu, Ermənistan hakimiyyətini kapitulyasiya aktını imzalamağa məcbur etdi.***

Ancaq öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək arzusu gözündə qalmış düşmən 10 noyabr tarixli üçtərəfli bəyanatdan sonra da təxribatlarından qalmadı. Arxalandığı böyük dövlətlər hesabına birinci Qarabağ müharibəsi dövründə müəyyən uğurlar qazanmış düşmən Vətən müharibəsində qarşılaşdığı ağır və sarsıdıcı məğlubiyyətlə barışmaq istəmirdi. Buna görə də meşələrdə təxribatçı qruplar saxlayaraq, Azərbaycan hərbçilərinə və mülki insanlara hücumlar edir, onları qətlə yetirirdi.

Bundan əlavə, Azərbaycan xalqına qənim kəsilmiş Ermənistan müharibədəki məğlubiyyətdən sonra uzun müddət işğal altındakı ərazilərimizə basdırdığı minaların xəritələrini bizə təqdim etmədi. Nəticədə, çox sayda Azərbaycan vətəndaşı bu minaların qurbanı oldu, müxtəlif dərəcəli xəsarətlər aldı.

Bu il iyunun 4-də Azərbaycan növbəti mina partlayışı qurbanlarının xəbərini eşidib sarsıldı. Bu dəfə erməni xəyanətinin günahsız qurbanları Azərbaycan Televiziyasının operatoru, 1989-cu il təvəllüdlü Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) idi. Onlar Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olmuşdular.

Təbii ki, bu iki media təmsilçisi Qarabağda baş verən hadisələr barədə operativ xəbərləri ölkə ictimaiyyətinə çatdırmaq üçün orada idilər. Bu vətənpərvər həmkarlarımız hər gün qürur hissi ilə işğaldan azad olunmuş ərazilərimizi gəzir, ölkə rəhbərliyinin həyata keçirdiyi bərpa işləri haqqında yeni məlumatlar yaymağa tələsirdilər. Amma ermənilərin mənfur xəyanət maşını onları da yarı yolda haqladı. Sirac Abışov da, Məhərrəm İbrahimov da 4 iyun 2021-ci ildə saat 11 radələrində həlak oldular.

Onlar xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanalları və xəbər agentlikləri əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində həyatlarını itirdilər. Həmin mina partlayışı nəticəsində onlarla birlikdə Kəlbəcər RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev də həlak olmuşdu. Daha 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya düşmüşdü.

Bu bədbəxt hadisədən bir neçə gün sonra Məhərrəm İbrahimov və Sirac Abışovun və xatirəsinin əbədiləşdirilməsi üçün mühüm addımlar atıldı. Azərbaycan Prezidenti İlham Əliyev onları "Üçüncü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif etdi. Eyni zamanda, onların adları "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin ərazisindəki Azərbaycan mətbuatı şəhidlərinin xatirəsinə yaradılmış memorial abidə kompleksinin anım lövhəsinə həkk olundu.

Dünən isə şəhid həmkarlarımız Məhərrəm İbrahimov və Sirac Abışovun ölümündən 40 gün keçdi. Respublikamızın ictimaiyyəti onların unudulmaz xatirəsini bir daha ehtiramla yad etdi, ruhlarına dualar oxudu.

Biz də "Xalq qəzeti" olaraq şəhid həmkarlarımıza Allahdan rəhmət, ailələrinə, əzizlərinə səbr diləyirik.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***